# Aylin Quluzadə



Bilik xəzinədir. Elm, bilik o qədər həzz mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilər.

Öyrənilməsi lazım olanlar həddindən artıq çox, insan həyatı isə olduqca qısadır. Biliksiz həyat həyat deyil. O adam məharətlidir ki, çox əziyyət çəkmədən elmə yiyələnir. Çox şeyi başqalarından öyrənir, hamının müdrikliyindən və qabiliyyətindən bəhrələnir. Yaşayaraq əldə edilən bilik daş üzərinə həkk edilmiş yazıdır.

Quluzadə Aylin Bəhruz qızı 7iyul 2010-cu ildə Biləsuvar rayonu Əliabad kəndində anadan olub. O, 2016-cı ildə M. Piriyev adına Əliabad kənd tam orta məktəbin 1-ci sinifində elm həyatına başalmışdır. Hal-hazırda Aylin həmin məktəbin 3-cü sinif şagirdidir. Aylin ağıllı və tərbiyəli şagirddir. O, rayonda keçirilən yarışlarda iştirak etmiş və yüsək nəticələr əldə etmişdir. Aylin tədris ilində keçirilən bütün fənnlərə marağ göstərir. Lakin ən çox sevdiyi fənnlər sırasında Azərbaycan dili, Riyaziyyat, İnformatika və İngilis dili fənnini xüsusi olaraq qeyd edib. Aylin müəllimlərin və şagirdlərin sevimlisinə çevrilmişdir. Aylinin ən çox sevdiyi müəllimə Aytəkin müəllimə, Valeh müəllim, Cəmalə müəllimə və Yaqut müəllimdir. O, sinifdə nümunəvi və əlaçı şagirdlərdən biridir. Boş vaxtlarında kitab oxumağı çox sevir. Aylinin ən böyük arzusu həkim olmaqdır. O, qarşısına məqsəd qoymuşdur ki, tanınmış və savadlı həkimlərdən biri olub, xəstə, köməyə möhtac insanlar üçün əlindən gələni edəcək və onların dərdlərinə çarə tapacaq. Aylin balamızın ailəsi 5 nəfərdən ibarətdir.

Atası Bəhruz Quliyev Azərsuda işləyir. Anası Quliyeva Yaqut müəllimədir. Qardaşları Cavid, İlkin.

Biz də gələcək həyatında Aylinə bol-bol şans arzu edirik, uğurları ilə valideynlərini və müəllimlərini sevindirməsini, vətənə, millətinə layiqli vətəndaş kimi yetişməsini arzu edirik.



# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

## DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



## DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

## DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S.Vurğun və S.Rüstəmin, musiqisi Ü.Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli "Azərbaycan marşı" Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

## Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır

Heydər Əlirza oğlu Əliyev



**Zərifə Əziz qızı Əliyeva**
Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**
Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.



# Bədirzadə Rəhman



Biz elmi-texniki tərəqqi əsrində yaşayırıq. Bu əsr elə bir əsrdir ki, bu zamanda cəmiyyətin inkişaf templəri, onun iqtisadi inkişafı birbaşa olaraq bilik və elmdən asılıdır.

Bilik bir gücdür. Elm öyrənmək böyük bir zəhmətdir. J.J.Russo demişdir: "Döyüşdə silah lazım olduğu kimi, həyatda da bilik lazımdır."

Bədirzadə Rəhman Aydın oğlu 22 dekabr 2008-ci ildə Biləsuvar rayon Xırmanlı kəndində anadan olub. Rəhman 2014-cü ildə M. Piriyev adına tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 4-cü sinif şagirdidir. Rəhman çox savadlı və çalışqan şagirddir. O, bütün fənləri sevir və daha çox Riyaziyyat fənni ən çox sevdiyi fənndir. Rəhman bütün müəllimlərini sevir, ən çox sevdiyi müəllimə Arzu müəllimədir. O, tədris ilində keçirilən fənlərdən əla qiymətlər alır. Rəhman sinifdə nümunəvi və əlaçı şagirdlərdən biridir. Boş baxtlarında bədii kitab oxumağı sevir. Ailəsi 4 nəfərdən ibarətdir. Gələcəkdə polis olmaq arusundadır. Rəhmanın atası ali təhsillidir, anası evdar xanımdır və bir bacısı var.

Biz də öz jurnalımız adından Rəhmana gələcək həyat yolunda bol-bol uğurlar arzu edirik. Yolun açıq olsun!

# Əlizadə Sevil



**Qüvvət elmdədir başqa cür heç kəs,**
**Heş kəsə üstünlük eyləyə bilməz.**
**Hər uca zirvədən bilin ki, fəqət**
**Alimin rütbəsi ucadır əlbət.**

"Bilik-başa tac, var-dövlət boyuna boyunbağıdır" atalar sözü ilə yazıma başlayıram və bütün gənclərimizin bəzəyinin daş-qaş, var-dövlət yox, bilik olmasını arzulayıram.

Əlizadə Sevil Xəlil qızı 22 iyul 2008-ci ildə Bakı şəhərində dünyaya göz açıb. Sevil 2015-ci ildə 297 nömrəli tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda o, həmin məktəbin 4-cü sinif şagirdidir. Sevilin ən böyük arzusu ailəsinə layiqli övlad olmaqdır. O, çox çalışqan və məsuliyyətli şagirddir. Məktəbə gəldiyi ilk gündən müəllimlərin və şagirdlərin sevgisini qazanmışdır. Sevil bütün fənnlərdən yaxşı qiymətlər alır. O, tədris ilində yüsək nəticə toplayaraq bir çox fəxri fərmanla mükafatlandırılmışdır. O, Bakı şəhəri Mədəniyyət və Turizm Baş İdarəsi tərəfindən təşəkkürnamə qazanmışdır. Ən çox sevdiyi fənn Riyaziyyat, İngilis dili, Həyat Bilgisi və Azərbaycan dili fənnləridir. Boş vaxtlarında musiqi ilə məşğul olmağı çox sevir. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası Əlizadə Xəlil Bayram oğlu polis sahəsi üzrə fəaliyyət göstərir

Anası Əlizadə Samirə Eyvaz qızı evdar xanımdır.

Bacısı Əlizadə Əsmər Xəlil qızı məktəblidir, 10-cu sinif şagirdidir.

Sevil gələcəkdə savadlı müəllimə olmaq arzusundadır.

Biz də öz növbəmizdə Sevilə uğurlar arzulayırıq və arzuladığı müəllimlik peşəsində həmişə qabaqcıl müəllimlərin sırasında olmağını arzu edirik.



# Abbaslı Dəniz



Elm həqiqəti öyrənir, həyatın qanunauyğunluqlarını, təbiətin sirlərini bir-birinin ardınca kəşf edir. Elmlə məşğul olmaq isə gözəlliyin sorağında gəzmək, onu kəşf etmək deməkdir. Çünki həqiqət gözəllikdən, gözəllik isə həqiqətdən ayrı deyildir. Gözəlik duyğusu varlığın inikası, mövcud həqiqətin idrakıdır. İnsan bütün varlığı ilə gözəlliyə can atır və deməli, həqiqi gözəlliyi duymaq, dərk etmək üçün elm öyrənmək vacibdir.

Abbaslı Dəniz Elməddin qızı 2010-cu ildə Biləsuvar rayonu Xırmandalı kəndində anadan olub. Dəniz 2016-cı ildə M. Priyev adına tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Dəniz hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. Dəniz sinifdə fəallığı ilə seçilir. O, tədris ilində keçirlən fənnlərdən əla qiymətlər aldığı üçün mükafatlar əldə etmişdir. Ən çox sevdiyi fənn Riyaziyyat fənnidir. Dəniz məktəbə gəldiyi ilk gündən müəllimlərin və şagirdlərin sevimlisinə çevrilmişdir. Ən çox sevdiyi müəllimə Aytəkin müəllimədir. Dəniz çox ağıllı və məsuliyyətli şagirddir. Onun ən böyük arzusu Tibb universitetinin tələbəsi olmaqdır. O, boş vaxtlarında dərslərindən əlavə bədii kitab oxumağı çox sevir. Ailəsi 5 nəfərdən ibarətdir.

Atası Abbaslı Elməddin usta işləyir.

Anası evdar xanımdır.

1 qardaşı və bacısı var.

Biz də öz jurnalımız adından Dənizə həyat yolunda bol-bol uğurlar arzu edirik. Yolun açıq olsun, səsin daima ucalardan gəlsin!

# Hüseynova Münəvvər



Dahi Azərbaycan şairi Seyid Əzim Şirvani belə deyib. Bəli, təhsil bizim gələcəyimizdir, ölkəmizi dünyaya tanıtmaq üçün bilik, savaddır. Müasir dünyada hər bir ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca istiqamət seçib.

Hüseynova Münəvvər Rahim qızı 1 avqust 2005-ci ildə Kürdəmir rayonu Köhünlü kəndində dünyaya göz açıb. Münəvvər 2011-ci ildə Qubadlı rayonu Ç.Quliyev adına Çardaxlı kənd tam orta məktəbin 1-ci sinifində elm həyatına başlayıb. Hal-hazırda elə həmin məktəbin 8-ci sinif şagirdidir. Münəvvərin gözəl rəsm çəkmək qabiliyyəti var. O, tədris ilində keçirilən fənnlərdən yaxşı qiymətlər aldığı üçün bir çox mükafatlar qazanmışdır. Ən çox sevdiyi fənn Riyaziyyat fənnidir. O, müəllimlərin və şagirdlərin sevimlisinə çevrilmişdir. Ən çox sevdiyi müəllimə Səmra müəllimə, Yasəmən müəllimə və Əfsanə müəllimənı xüsusi olaraq qeyd edib. Münəvvər bir çox qəzetlərdə sərgilərdə iştirak edib, 3 il rəssamlıq kursuna gemişdir. Boş vaxtlarında isə rəsm çəkməyi, maraqlı kitablar oxumağı çox sevir. Münəvvərin arzusu gələcəkdə Dizayner olmaqdır. Ailəsi 5 nəfərdən ibarətdir.

Atası Hüseynov Rahin İdris oğlu10 iyul 1982-ci ildə Kürdəmir rayonunda anadan olub. Mühəndislik üzrə fəaliyyət göstərir.

Anası Hüseynova Aysel Telman qızı 10 sentyabr 1985-ci ildə Kürdəmirdə anadan olub. Evdar xanımdır.

Qardaşı Hüseynov Tunar, məktəblidir, 1-ci sinif şagirdidir.

Bacısı Hüsynova Ellada, məktəblidir, 6-cı sinif şagirdidir.

Biz də öz jurnalımız adından Münəvvərə gələcək həyat yolunda bol- bol uğurlar arzu edirik. Yolun açıq olsun!



# Əsgərov Heydər



Təhsili cəmiyyətin fəal hərəkətverici, inkişafetdirici qüvvəsinə çevirənlər məhz müəllimlərdir. Təhsilin məzmunu nə qədər yüksək və mükəmməl, maddi-texniki bazası nə qədər möhkəm, biliklərin ötürülməsi vasitələri nə qədər təkmil və müasir olsa da, əgər müəllim yoxdursa, heç nədir. Təhsil məhz müəllim əqlinin gücü ilə cəmiyyətin inkişaf amilinə çevrilir, biliklərin, mədəniyyətlərin, milli adət-ənənələrin daşıyıcısı olan yeni-yeni nəsillər məhz müəllim zəkasının nurundan, müəllim qəlbinin hərarətindən pay alaraq formalaşır. Bu baxımdan müəllim təhsildə əsas sima, aparıcı qüvvədir.

Əsgərov Heydər İntiqam oğlu 14 avqust 2004-cü ildə Biləsuvar rayonunda dünyaya göz açıb. Heydər 2010-cu ildə Biləsuvar rayon M. Piryev adına tam orta məktəbin 1-ci sinifində təhsil almağa başladı. Heydər hal-hazırda elə həmin məktəbin 9-cu sinif şagirdidir. Belə bir deyim var ki, “Sağlam həyat sağlam idmanın nəticəsidir”. Bu deyim idman sahəsində çalışan həkimlərin apardıqları araşdırmalardan sonra özləri üçün seçdikləri devizdir. Hər gün yüksək əhval-ruhiyyədə olmaq, enerjili və sağlam həyat yaşamaq istəyənlərə həkimlərin ilk və əsas məsləhəti idmanla məşğul olmaqdır. Heydər də idmanla məşğul olmağı çox sevir. Heydər çox çalışqan və məsuliyyətli şagirddir. Tədris ilində keçirlən fənlərdən yaxşı qiymətlər aldığı üçün bir çox mükafatlar əldə etmişdir. Ən çox sevdiyi fənn Kimya, Fizika və Coğrafiya fənnidir. Heydər müəllimlərin hörmətini və rəğbətini qazanmağı bacarmışdır. Bu sırada o, Günəş müəllimə, Əhliman müəllim, Əfsanə müəllimə və Oktay müəllimi xüsusi olaraq qeyd edib. Heydərin arzusu gələcəkdə tələbə adını qazanmaqdır və Milli Aviasiya Akademiyasının Mühəndislik fakultəsinə qəbul olmaqdır. Heydərin ailəsi 5 nəfərdən ibarətdir.

Atası Əsgərov İntiqam Həmid oğlu Bakı şəhərində dünyaya göz açıb.

Anası Əliyeva Nahidə evdar xanımdır.

Qardaşı Rəhmən Əsgərov məktəblidir, 1-ci sinif şagirdidir.

Bacısı Əsgərova Rahidə məktəblidir, 7-ci sinif şagirdidir.

Biz də öz jurnalımız adından Heydərə uğurlar və müvəffəqiyyətlər arzu edirik.

# Məmmədli Əsma



Elm - təbiət və cəmiyyətin inkişaf qanunauyğunluqlarını və obyektiv aləmə təsiri üsullarını öyrənən (meydana çıxaran) biliklər sistemi və bu biliklərin ayrıca sahəsi. İnsan biliklərinin müəyyən bir sahəsi. Məsələn, elmlə məşğul olmaq, həyatını elmə sərf etmək, oxumaqla əldə edilən bilik, məlumat. Bəzən savad, məlumat mənasında. Elmilik - elmi olma, elmə əsaslanma, elmi mahiyyət daşıma. Məsələn, nəticələrin elmiliyi, sübatların elmiliyi. Elmli - təhsil görmüş, təhsil almış, təhsilli, oxumuş, ziyalı; insanın əməli və nəzəri fəaliyyətinin spesifik sahəsi; ictimai şüur formalarından biri.

Məmmədli Əsma Çingiz qızı 2009-cu ildə Sumqayıt şəhərində anadan olub. Əsma 2016-cı ildə Qubadlı rayonu Çaytumas kəndinin tam orta məktəbinin 1-ci sinifində təhsil almağa başlayır. Hal-hazırda Əsma elə həmin məktəbin 3-cü sinif şagirdidir. Əsma sinifdə qabaqcıl şagirdlərdən biridir. O, dərslərində yaxşı qiymətlər alır. Əsmanın gözəl rəsm çəkmək qabiliyyəti də var. Tədris ilində keçirilən fənnlərdən yaxşı qiymətlər aldığı üçün bir çox mükafatlar qazanmışdır. Əsma boş vaxtlarında şahmat oynamağı da çox sevir O, şahmat üzrə keçirilən yarışlarda 1- ci yer tutmuşdur. Ən çox sevdiyi fənn isə Azərbaycan dili, Riyaziyyat və İngilis dili fənndidir. O, məktəbə gəldiyi ilk gündən müəllimlərin sevimlisinə çevrilmişdir. Bu sırada Əsma Həqiqət müəlliməni və Afət müəlliməni xüsusi olaraq qeyd edib. Ailəsi 5 nəfərdən ibarətdir.

Atası Məmmədov Çingiz əlildir.

Anası Məmmədova Hicran 1974-cü ildə anadan olub, müəllimədir.

Qardaşı Məmmədli Ayxan

Bacısı Məmmədova Çinarə

Əsma gələcəkdə savadlı müəllimə olmaq arzusundadır. Biz də öz jurnalımız adından Əsmaya həyat yolunda uğurlar arzu edirik. Yolun hər zaman açıq olsun, səsin ucalardan gəlsin!



# İbrahimli Leyla



Elm - insan haqqında obyektiv, sistemli və əsaslandırılmış biliklərin əldə edilməsinə, dəqiqləşdirilməsinə və yayılmasına yönəlmiş insan fəaliyyəti növüdür. Bu fəaliyyətin əsasını elmi faktların toplanması, onların daima yenilənməsi və sistemləşdirilməsi, tənqidi analizi və bu əsasda elmi biliklərin toplanması təşkil edir. Elm təkcə müşahidə edilən təbiət və ictimai halları təsvir etmir, həm də onların əlaqələrini tapır və nəticəni müəyyən edə bilir.

İbrahimli Leyla Məftun qızı 22 noyabr 2009-cu ildə Biləsuvar rayonu Əliabad kəndində anadan olmuşdur. O, 2016-cı ildə M. Priyev adına tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. Leyla hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. Az yaşlı olmağına baxmayaraq Leyla çox çalışqan və məsuliyyətli şagirddir. O, bütün fənnlərdən yaxşı qiymətlər alır. Leyla balamızın ən çox sevdiyi fənn Azərbaycan dili fənnidir. O, müəllimlərin sevgisini qazanmağı bacarmışdır. Ən çox sevdiyi müəllim Aytəkin müəllimə, Mehman müəllim, Cəmalə müəllimədir. Leyla boş vaxtlarında dərslərindən əlavə bədii kitablar oxumağı, yazı yazmağı çox sevir. Belə bir deyim var ki, ''Dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə əsla dəyər verilə bilməz''. Dünyada gözəl, nəcib peşələr çoxdur. Həkim insanların sağlamlığının keşiyində dayanır, xəstələrə şəfa verir. Mühəndis fabrik və zavodları işlədir, hündür binalar ucaldır, yollar çəkir, körpülər salır. Kosmonavt fəzanı fəth edir, müxtəlif planetlərin sirlərini öyrənir. Fəqət bütün peşələrin fövqündə dayanan müqəddəs bir peşə də var. Bu, müəllimlikdir. Həkim də, mühəndis də, kosmonavt da seçdikləri sənətin sirlərini məhz müəllimdən öyrənirlər. Müəllim elm, bilik xəzinəsinin qapısını insanların üzünə açan bir varlıqdır. Leyla balamız da gələcəkə ağıllı, savadlı müəllimə olmaq arzusundadır. Leylanın ailəsi 5 nəfərdən ibarətdir.

Biz də öz redaksiyamız adından Leylaya gələcək həyat yolunda uğurlar arzu edirik. Yolun açıq olsun, səsin ucalardan gəlsin!

# Quliyeva Aysu



Elm ictimai inkişafın nəticəsidir. Yarandığı gündən insanın fəaiyyəti ilə qırılmaz surətdə əlaqədar olmuşdur. Elm bir tərəfdən daima insan fəaliyyətinin təsiri altında olmuş, digər tərəfdən isə həmin fəaliyyətə fəal təsir göstərmişdir. Elm dünyagörüşünün yaranıb inkişaf etməsinə hərtərəfli şərait yaratmışdır. Onun əsas vəzifəsi ictimai tələbatın ödənilməsidir.

Quliyeva Aysu Əhliman qızı 19 may 2008-ci ildə Biləsuvar rayonu Əlyabat kəndində dünyaya göz açıb. Aysu 2014-cü ildə Malik Piriyev adına tam orta məktəbin 1-ci sinifində təhsil almışdır. O, hal-hazırda həmin məktəbin 5-ci sinif şagirdidir. Aysu sinif üzrə fəal və çalışqan şagirdlərdən birdir. O, qısa müddət ərzində müəllimlərinin diqqətini çəkmiş və sevgisini qazanmışdır. O, məktəb üzrə ilin ən yaxşı şagirdlərindən biridir. Aysu boş vaxtlarında kitab oxumağı, oyun oynamağı çox sevir. O, bütün fənnləri sevir amma ən çox sevdiyi fənn Azərbaycan dili, İngilis dili və Rus dili fənndir. Aysu müəllimlərin hörmətini qazanmışdır və bu sırada Yaqut muəllimi və Elnurə müəlliməni xüsusi olaraq qeyd edib. Aysu balamızın arzusu gələcəkdə həkim olmaqdır. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası müəllimədir, Anası evdar xanımdır.

Biz də Aysu balamıza bol-bol uğurlar arzu edirik, uğurları ilə valideynlərini, müəllimlərini sevindirməsini diləyirik. Yolun açıq olsun!



# Nəsrullayeva Sənay






Elmin cəmiyyətin məhsuldar qüvvələrinin inkişafına və ictimai həyatın müxtəlif sahələrinə təsirinin sosial nəticələri mühümdür. Elm həmçinin təbiət, cəmiyyət və təfəkkürün inkişaf qanunları haqqında biliklər sistemidir.

Nəsrullayeva Sənay Vüqar qızı 13 fevral 2009-cu ildə Ağsu rayonunda dünyaya göz açıb. O, 2015-ci ildə 29 nömrəli tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. Sənay hal-hazırda həmin məktəbin 4-cü sinif şagirdidir. Sənay çox çalışqan və məsuliyyətli şagirddir. O, tədris ilində keçirilən fənnlərdən əla qiymətlər alır. Sənay balamızın ən çox sevdiyi fənn Azərbaycan dili fənnidir. Dərslərdə göstərdiyi fəallığı ilə sinif yoldaşlarından fərqlənir. Sənay müəllimlərin sevimlisinə çevrilmişdir. Həmişə öyrəndiklərinə görə üstündə əziyyəti olan müəllimlərinə minnətdarlığını bildirir. O, müəllimlərin hörmətini və rəğbətini qoruyub saxlayır. Ən çox sevdiyi müəllimə Ayna müəllimədir. Sənay dərslərində fəal iştirak etdiyinə görə bir çox sertifikatlar, fəxri fərman və diplomlarla mükafatlandırılmışdır. O, dərslərindən əlavə boş vaxtlarında şeir yazır, kitab oxuyur və rəsm çəkir. Belə bir deyim var ki, ''Dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə əsla dəyər verilə bilməz''. Dünyada gözəl, nəcib peşələr çoxdur. Həkim insanların sağlamlığının keşiyində dayanır, xəstələrə şəfa verir. Mühəndis fabrik və zavodları işlədir, hündür binalar ucaldır, yollar çəkir, körpülər salır. Kosmonavt fəzanı fəth edir, müxtəlif planetlərin sirlərini öyrənir. Fəqət bütün peşələrin fövqündə dayanan müqəddəs bir peşə də var. Bu, müəllimlikdir. Həkim də, mühəndis də, kosmonavt da seçdikləri sənətin sirlərini məhz müəllimdən öyrənirlər. Müəllim elm, bilik xəzinəsinin qapısını insanların üzünə açan bir varlıqdır. Sənay da gələcəkdə müəllim olmaq arzusundadır. Sənay balamızın ailəsi 5 nəfərdən ibarətdir.

Atası Nəsrullayev Vüqar İnqlab oğlu, sahibkardır.

Anası Nəsrullayeva Səbinə Nəbi qızı, evdar xanımdır.

Qardaşı Nəsrullayev Elay, məktəblidir,1-ci sinif şagirdidir.

Bacısı Nəsrullayeva Aytən, məktəblidir, 6-cı sinif şagirdidir.

Sənay öhdəsinə düşən bütün işləri uğurla görəcək. İstedad, əzm və qətiyyət sayəsində sonda bu yarışdan qalib çıxacaq.

# Əhmədzadə Rəvan



Biz elmi-texniki tərəqqinin çox vüsət alıb tüğyan etdiyi bir əsrdə yaşayırıq. Bu belə bir əsrdir ki, cəmiyyətimizin onun iqtisadi, mədəni, mənəvi inkişafı elm və biliklə xarakterizə olunur.

Təhsil və bilik insan həyatında aparıcı rol oynayan ən vacib amillərdəndir. Belə ki, bilik insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vasitədir. Elm, təhsil eyni zamanda dünya və aləmi, onun əsrarəngiz çalarlarını dərk edib duymaq üçün bir vasitədir. Belə ki, bizi əhatə edən aləm elmin, təhsilin və müasir texnikanın uğurlu nailiyyətlərinə əsaslanır.

Əhmədzadə Rəvan Nail oğlu 18 mart 2009-cu ildə Abşeron rayonu Xırdalan şəhərində dünyaya göz açıb. Rəvan 2015-ci ildə Binəqədi rayonu 297 nömrəli tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. O, hal-hazırda isə elə həmin məktəbin 4-cü sinif şagirdidir. Rəvan çox ağıllı və tərbiyəli şagirddir. O, bütün fənnlərə marağ göstərir. Ən çox sevdiyi fənn Riyaziyyat və İnformatika fənnidir. Məktəbə gəldiyi ilk gündən müəllimlərin və şagirdlərin sevimlisinə çevrilmişdir. O, müəllimlərin rəğbətini qazanmışdır. Ən çox sevdiyi müəllimə Abdullayeva Dünya müəllimədir. O, müəlliməsini onun üzərində çəkdiyi əziyyəti həmişə dəyərləndirir və bir şagird kimi onun başını uca etmək üçün əlindən gələnini edir. Rəvanın gələcəkdə arzusu ilk öncə müəllimlərinə və ailəsinə layiqli övlad olmağı və tələbə adını qazanmaqdır. O, pilot olmaq istəyir. Rəvan tədris ilində keçirilən fənləri əla qiymətlərlə bitirdiyi üçün bir çox mükafatlar əldə etmişdir. Rəvan hətda televiziya verlişlərində iştirak etmişdir. Məktəblərdə keçirilən sınaqlarda yüksək nəticə göstərmişdir. Rəvan dərslərindən əlavə futbol izləməyi, kitab oxumağı, idmanla məşğul olmağı çox sevir. Rəvanın ailəsi 5 nəfərdən ibarətdir.

Atası Əhmədov Nail Bahadır oğlu 9 oktyabr 1983-cü ildə Qubadlı rayonunda dünyaya göz açmışdır. Ali təhsillidir, X. Faiq oğlu şirkətində sürücü işləyir.

Anası Rzayeva Sara Rza qızı 27 mart 1984-cü ildə Qubadlı rayonunda anadan olub. Hal-hazırda 297 nömrəli tam orta məktəbin biologiya müəlliməsi vəzifəsində fəaliyyət göstərir. ADPU-nu qırmızı diplomla bitirib.

Qardaşı Əhmədzadə Bahadır. Məktəblidir, 1-ci sinif şagirdidir.

Əhmədzadə Rəvana gələcəkdə uğurlar arzu edirik. Ona müəllimlərin və valideynlərinin fəxri olmağını diləyirik.



# Kəlbiyev Məhəmməd



Bilikli insan hərtərəfli olduğu üçün hər hansı bir çətin vəziyyətdən çox asanlıqla çıxa bilir. Belə insanlar ziyalılığın göstəricisi kimi güclü ünsiyyət bacarığına da yiyələnmiş olur. Belə ki, dili, ünsiyyəti güclü olan insan malik olduğu bilik və bacarığını daha rahat, başa düşüləcək tərzdə ifadə etmək qabiliyyətindədir. Budur ziyalılıq.

Kəlbiyev Məhəmməd Əfqan 24 iyun 2007-ci ildə Biləsuvar rayon Aşağı Cürəli kəndində dünyaya göz açıb. Məhəmməd Oktay Babayev adına tam orta məktəbin 6-cı sinif şagirdidir. Məhəmmədin ən çox sevdiyi fənn Azərbaycan dili, Tarix, Riyaziyyat və İngilis dili fənnləridir. Lakin o, bütün fənnlərin əhəmiyyətini dərk edir və hər bir fənnə məsuliyyətlə yanaşır. Məhəmməd məktəbə gəldiyi ilk gündən müəllimlərin sevimlisinə çevrilmişdir. Ən çox sevdiyi müəllim Sevər müəllimə, Esmira müəllimə, Sədaqət müəllimə və Kəmalə Müəllimədir. Məhəmmədin bir çox uğurları da vardır. O, dərslərində fəal iştirak etdiyi üçün bir çox təltifnamə qazanmışdır. Boş vaxtlarında kitab oxumağı və futbol oynamağı çox sevir. Məhəmmədin arzuladığı peşə Aviasiya Akademiyasında Komputer mühəndisi olmaqdır. Məhəmmədin ailəsi 5 nəfərdən ibarətdir.

Atası Kəlbiyev Əfqan Məhəmməd oğlu.

Anası Əmirova Rəhimə Lazım qızı.

Bacısı Kəlbiyeva Zəhra, Kəlbiyeva Selcan.

Biz də öz jurnalımız adından Məhəmmədə uğurlar və müvəffəqiyyətlər arzu edirik. Səsin daima ucalardan gəlsin!

# Mədətov Fərid



Bilikdən güclü bir qüvvə yoxdur, biliklə silahlanan insan məğlub edilməzdir.

Dahi şairimiz N.Gəncəvi alimin rütbəsinin ən uca rütbə olduğunu belə ifadə etmişdir.

Qüvvət elmdədir, başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz!
Hər uca rütbədən biliniz fəqət,
Alimin rütbəsi ucadır əlbət!

Mədətov Fərid Məhəd oğlu Bakı şəhərində anadan olmuşdur. O, 2009-cu ildə E. Əliyev adına 297saylı tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. O, hal-hazırda elə həmin məktəbin 10-cu sinif şagirdidir. Çox çalışqan şagird olan Fərid bütün dərslərindən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənn Fizika fənnidir. Fərid hər zaman bir şagird kimi əldə etdiyi uğurlarına görə öz müəllimlərinə borclu olduğunu və onlara böyük hörmət bəslədiyini vurğulayır və bu sırada Sara müəlliməni xüsusi olaraq qeyd edib. Fərid Xoreoqrafi üzrə diplom və fəxri fərman əldə etmişdir. Boş vaxtlarında musiqi dinləməyi çox sevir. Fəridin ailəsi 4 nəfərdən ibarətdir.

Atası 24 dekabr 1972-ci ildə Qazax rayonunda anadan olub. Hal-hazırda Bakıda yaşayır, əlildir.

Anası 24 oktyabr 1981-ci ildə Ağstafa rayonu Tatlı kəndində anadan olub. Hal-hazırda Bakıda yaşayır. Evdar xanımdır.

Qardaşı 8yanvar 2005-ci ildə Bakıda anadan olub. Hal-hazırda məktəblidir, 8-ci sinifdə oxuyur.

Mədətov Fəridə həyat yolunda uğurlar arzu edirik. Yolun açıq olsun!



# Kəlbiyeva Zəhra



Elmin mənbəyi evimizdən, bağçadan və məktəbdən başlanır. Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Bu işdə bilikli, dünyagörüşlü, milli dəyərlərimizi ifadə edən müasir texnikaya, onun nailiyyətlərinə yiyələnmiş vətənpərvər, fədakar müəllimlərimiz böyük rol oynayır.

İndi dünya ölkələrinə inteqrasiyası vacib olduğu, intellekt savaşı getdiyi zamandır.

Torpaqlarımızın işğaldan azad edilməsi millətimizin azad, firavan yaşaması üçün bütün bilik və bacarıqlara yiyələnən vətəndaşlarımıza böyük ehtiyac vardır. Çünki elmi biliklərə malik bir ölkənin gücü, qüdrəti böyük olar.

Kəlbiyeva Zəhra Əfqan qızı 8 may 2005-ci ildə Aşağı Cürəli kəndində dünyaya göz açıb. O, 2011-ci ildə Oktay Babayev adına tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. Zəhra həmin məktəbin 8-ci sinif şagirdidir. Zəhra uşaqlar arasında ən fəal və məsuliyyətli şagird seçildiyinə görə bir çox mükafatlar qazanmışdır. O, məktəblərdə keçirilən sınaqlardan yüksək nəticə əldə etdiyinə görə diplomla mükafatlandırılmışdır. Zəhra məktəbə gəldiyi ilk gündən müəllimlərin sevgisini qazanmışdır. O, tədris ilində keçirilən fənnlərdən əla qiymətlər alır. Ən çox sevdiyi fənn Biologiya, Kimya, Fizika, İngilis-dili, Azərbaycan dili və Riyaziyyat fənnidir. Müəllimlərdən isə Sevinc müəllimə, Ramil müəllimə, Kəmalə müəllimə və Sevər müəlliməni xüsusi olaraq qeyd edib. Zəhra gələcəkdə Tibb universitetinin tələbəsi olmaq arzusundadır. O, cərrah olmaq istəyir. Zəhra boş vaxtlarında futbol izləməyi və bədii kitablat oxumağı çox sevir. Zəhra balamızın ailəsi 5 nəfərdən ibarətdir.

Atası Kəlbiyev Əfqan Məhəmməd oğlu 1979-cu ildə anadan olub. Hal-hazırda Azərenerji işıq idarəsində aparıcı mühəndis vəzifəsində çalışır.

Anası Əmirova Rəhimə Lazım qızı 1984-cü ildə anadan olub, evdar xanımdır.

Qardaşı Kəlbiyev Məhəmməd Əfqan oğlu 2007-ci ildə anadan olub. Hal-hazırda 6-cı sinif şagirdidir. Bacısı isə 2018-ci ildə dünyaya göz açıb.

Şagirdlərimizin belə çalışqan və məsuliyyətli olması sevindirici haldır. Biz də Zəhraya dərslərində uğurlar və sorağının daha yüksək zirvələrdən gəlməsini arzu edirik. Yolun açıq olsun!

# Qasımlı Raşida







Təhsili cəmiyyətin inkişafetdirici qüvvəsinə çevirən amillərdən biri isə təbii ki, orta və ali təhsil müəssisələri, bu tədris ocaqlarında çalışan müəllimlərdir. Təhsillə elmin vəhdətliyini qorumaq missiyası isə ali təhsil müəssisələrinin üzərinə düşür. Hər bir təhsil ocağı özəlliyi, təhsilin keyfiyyəti, tətbiq etdiyi yenilikləri, islahatları ilə diqqət çəkir.

Qasımlı Rəşidə Nizami qızı 26 iyul 2010-cu ildə Biləsuvar rayon Zəhmətabad kəndində dünyaya göz açıb. O, 2015-ci ildə Nizami Gəncəvi adına 1saylı tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. Rəşidə həmin məktəbin 3-cü sinif şagirdidir. Az yaşlı olmağına baxmayaraq çox məsuliyyətli və çalışqan şagirddir. Rəşidə müəllimlərin rəğbətini qazanmağı bacarmışdır. Ən çox sevdiyi müəllim Ədibə müəllimdir. Ona tədris olunan bütün fənnlərdən yaxşı qiymətlər alır. Onun ən çox sevdiyi fənn Riyaziyyat və İnformatika fənnidir. Amma ki Rəşidə bütün fənnlərlə maraqlanır və onaları dərk edir. Məktəblərdə keçirilən sınaqlarda yüksək nəticə əldə etmiş və bir çox mükafatlar qazanmışdır. Rəşidə boş vaxtlarında bədii kitablar oxumağı çox sevir. Arzuladığı peşə həkim olmaqdır. Sevimli Rəşidə balamızın ailəsi 7 nəfərdən ibarətdir.

Atası Qasımov Nizami Əlif oğlu 4 noyabr 1978-ci ildə Biləsuvar rayonu Zəhmətabad kəndində dünyaya göz açıb. Anası Əlizadə Gülnar 21 mart 1978- ci ildə Biləsuvar rayonunda anadan olub. Qardaşları Qasımov Rəşid, Qasımlı Şəhriyar, Qasımlı Cahan.

Bacısı Qasımzadə Selin.

Müəllimlərin hörmətini və sevgisini qazanan Rəşidəyə həyat yolunda bol-bol uğurlar arzu edirik. Yolun açıq olsun!



# Soltanlı Tofiq



Bilik xəzinədir. Elm, bilik o qədər həzz mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilər.

Öyrənilməsi lazım olanlar həddindən artıq çox, insan həyatı isə olduqca qısadır. Biliksiz həyat həyat deyil. O adam məharətlidir ki, çox əziyyət çəkmədən elmə yiyələnir. Çox şeyi başqalarından öyrənir,

hamının müdrikliyindən və qabiliyyətindən bəhrələnir. Yaşayaraq əldə edilən bilik daş üzərinə həkk edilmiş yazıdır.

Soltanlı Tofiq Şahin oğlu 10 mart 2008-ci ildə Biləsuvar rayonu Əsgərabad kəndində anadan olub. 2013-cü ildə o, Babayev adına tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. Hal-hazırda elə həmin məktəbin 5-ci sinif şagirdidir. Tofiq çox çalışqan və məsuliyyətli şagirddir. O, tədris ilində keçdiyi fənnlər üzrə əla qiymətlər aldığı üçün əlaçı şagird kimi mükafatlandırılmışdır. Onun ən çox sevdiyi fənn Riyaziyyat fənnidir. Dərslərində göstərdiyi fəallığı ilə sinif yoldaşlarından fərqlənir. Tofiq müəllimlərin sevimlisinə çevrilmişdir. Həmişə öyrəndiklərinə görə üstündə əziyyəti olan müəllimlərinə minnətdarlığını bildirir. O, müəllimlərin hörmətini və rəğbətini daima qoruyur. Ən çox sevdiyi müəllim Mirnicat müəllimidir. Tofiq boş vaxtlarında kitab oxumağı və futbol oynamağı çox sevir. Gələcəkdə arzusu hüquqşunas olmaqdır. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası Soltanov Şahin.

Anası Soltanova Sənubər evdar xanımdır.

Qardaşı Soltanov Rafiq.

Məktəbə qədəm qoyduğu ilk gündən indiyədək oxumağa həvəsi olan və çalışqanlığı ilə seçilən Tofiqin orta məktəbi bitirənədək belə çalışqan olacağını və gələcəkdə tələbə adını qazanmasını arzu edirik.

# Soltanlı Rafiq



Bilik - insanın özü və onu əhatə edən aləm və bu aləmin amilləri haqqında məlumat toplusu. Bilik mühəndisliyi baxımından bilik formallaşdırılmış informasiyadır. Bilik praktiki fəaliyyət və peşəkar təcrübə nəticəsində alınan predmet sahəsinin qanunauyğunluqları olub (prinsipləri, əlaqələri, qanunları), həmin sahədə mütəxəssislərə məsələ qoymağa və həll etməyə imkan verir.

Soltanlı Rafiq Şahin oğlu 8 sentyabr 2009-cü ildə dünyaya göz açıb. Rafiq 2015-ci ildə o, Babayev adına tam orta məktəbin 3-cü sinifində oxuyur. Rafiq təhsil aldığı məktəbdə çalışqanlığı, məsuliyyəti və nizam- intizamı ilə seçilən şagirdlərdəndir. O, öz mehriban rəfdarı ilə sinif yoldaşlarının və müəllimlərinin sevgisini qazanmışdır. Ən çox sevdiyi fənn Riyaziyyat fənndir. Amma o, ümumilikdə bütün dərslərə məsuliyyətlə yanaşır. Məktəbə gəldiyi ilk gündən müəllimlərinin sevimlisinə çevrilmişdir. Rafiq ona dərs deyən bütün fənn müəllimlərini çox sevdiyini və onları çox sevdiyini vurğulayır. Bu sırada Ş. Alimə müəlliməni xüsusi olaraq qeyd edib. Rafiqin gələcəkdə arzusu Hüquqşünas olmaqdır. O, dərslərində qazandığı uğura görə yoldaşlarından fərqlənir. Boş vaxtlarında futbol oynamağı, idmanla məşğul olmağı çox sevir. Rafiq balamızın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Soltanov Şahin Təbii Sərvətlər Nazirliyinin əməkdaşı kimi fəaliyyət göstərir.

Anası Soltanova Sənubər işləmir, evdar xanımdır.

Qardaşı Soltanov Tofiq məktəblidir, 5-ci sinif şagirdidir.

Müəllimlərin sevgisini qazanan Rafiqə uğurlarının davamlı olmasını və ali məktəbə daxil olmaqla müəllimlərinin adını daha da ucaltmasını diləyirik.



# Qasımlı Şəhiyar





Hər bir ali təhsil ocağının özəlliyindən bəhs edərkən təbii ki, həyata keçirdiyi fərqli layihələr xüsusi vurğulanmalıdır. Bu fərqlilikdən biri də universitetdə təhsil alan, müxtəlif ixtisaslar üzrə peşəkar mütəxəssis olmağa hazırlaşan tələbələrin universitetin özünüidarəçiliyinə - “Bir günlük Xəlifə” Tələbə Özünüidarəetmə gününə cəlb olunmasıdır.

Qasımlı Şəhriyar Nizami oğlu 2 mart 2009-cu ildə Biləsuvar rayonu Zəhmətabad kəndində dünyaya göz açıb.Şəhriyar 2014-cü ildə Nizami Gəncəvi adına 1 saylı tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Halhazırda isə elə həmin məktəbin 4-cü sinif şagirdidir. Şəhriyar çox çalışqan və məsuliyyətli şagirddir. O, müəllimlərin sevgisini və hörmətini qazanmışdır. Həmişə öyrəndiklərinə görə üstündə əziyyəti olan müəllimlərinə minnətdarlığını bildirir. Ən çox sevdiyi müəllimə Dilarə müəllimədir. Şəhriyar tədris ilində keçirilən fənnlərdən yaxşı qiymətlər aldığı üçün bir çox mükafatlar qazanmışdır. Ən çox sevdiyi fənn Riyaziyyat və Azərbaycan dili fənnidir. Məktəblərdə keçirilən sınaqlardan yüksək nəticə topladığına görə bir çox təltifnamələr əldə etmişdir. Şəhriyar dərslərindən əlavə boş vaxtlarında futbol oynamağı çox sevir. Şəhriyarın ailəsi 7 nəfərdən ibarətdir.

Atası Qasımov Nizami Əlif oğlu 4 noyabr 1978-ci ildə Biləsuvar rayonu Zəhmətabad kəndində dünyaya göz açıb. Anası Əlizadə Gülnar 21 mart 1978- ci ildə Biləsuvar rayonunda anadan olub. Qardaşı Qasımov Rəşid, Qasımlı Cahan, Qasımlı Rəşidə.

Biz də öz jurnalımız adından Şəhriyara həyat yolunda bol-bol uğurlar arzu edirik. Yolun açıq olsun, səsin daima ucalardan gəlsin!

# Vəliyeva Ayla



Dahi Azərbaycan şairi Seyid Əzim Şirvani belə deyib. Bəli, təhsil bizim gələcəyimizdir, ölkəmizi dünyaya tanıtmaq üçün bilik, savaddır. Müasir dünyada hər bir ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu yanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca istiqamət seçib.

Vəliyeva Ayla Toğrul qızı 20 oktyabr 2008-ci ildə Bakıda dünyaya göz açıb. 2015-ci ildə 297 nömrəli tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. Hal-hazırda elə həmin məktəbin 4-cü sinif şagirdidir. Yaxşı qiymətlərlə oxuyur. Ayla çox çalışqan və bacarıqlı şagirddir. Onun gözəl rəsm çəkmək qabiliyyətidə var. Ayla bütün fənnlərə marağ göstərir. Ən çox sevdiyi fənn Texnologiya, Rəsm və İngilis dili fənnidir. Davranışları və dərslərinə olan həvəsi ilə öz müəllimlərinin sevimlisinə çevrilməyi və onların hörmətini qazanmağı bacarmışdır. Ən çox sevdiyi müəllim Aynurə müəllimə, Rüxsarə müəllimə, Mətanət müəllimə və Gülay müəllimədir. Ayla boş zamanlarda kitab oxuyur və rəsm şəkir. Aylanın ən böyük dəstəkçisi onun ailəsidir.

Atası Vəliyev Toğrul Elxan oğlu, mühəndislik üzrə fəaliyyət göstərir.

Anası Vəliyeva Könül Ehtibar qızı,- Milli konservatoriyada musiqi müəllimәsidir.

Bacısı Vəliyeva Sevda Toğrul qızı, məktəblidir, 1-ci sinifdə təhsilini alır.

Vəliyeva Aylaya gələcəkdə uğurlar arzu edirik. Ona müəllimlərinin və valideynlərinin fəxri olmağını diləyirik.



# Həşimzadə Əli



Elmsiz, təhsilsiz bir insan yolunu azmış kor bir səyyaha bənzər ki, kiçik bir çuxur onu məhv edər.

Elm və bilik insan həyatını mənalandıran, onu zənginləşdirən işıqlı bir yoldur. Odur ki, həyat və gūzəranımızı daha mənalı etmək, səmərəli yaşamaq üçün daha çox təhsilə, savada yiyələnməliyik.

Həşimzadə Əli Bəhram oğlu 3noyabr 2008-ci ildə Biləsuvar rayonunda dünyaya göz açıb. O, 2015-ci ildə A. Cürəlik kəndinin tam orta məktəbində elm həyatına başlamışdır. Əli hal-hazırda həmin məktəbin 4-cü sinif şagirdidir. Əli çox ağıllı və tərbiyəli uşaqdır. Az yaşlı olmağına baxmayaraq Əli məsuliyyətli şagirddir. Dərslərdə göstərdiyi fəallığı ilə sinif yoldaşlarından fərqlənir. O, sinifdə nümunəvi və əlaçı şagirddir. Əli bütün dərslərdən əla qiymətlər aldığı üçün bir çox mükafatlar əldə etmişdir. O, məktəblərdə keçirilən sınaqlarda iştirak etmiş və yüksək nəticə əldə etmişdir. Ən çox sevdiyi fənn Riyaziyyat fənnidir. O, məktəbə gəldiyi ilk gündən müəllimlərin sevimlisinə çevrilmişdir. Həmişə öyrəndiklərinə görə üstündə əziyyəti olan müəllimərinə minnətdarlığını bildirir. Ən çox sevdiyi müəllim Oruc Muxtarov müəllim və Cavadova Şəbnəm müəllimdir. Əli boş vaxtlarında dərslərindən əlavə futbol oynamağı çox sevir. Əlinin ailəsi 6 nəfərdən ibarətdir.

Atası Həşimov Bəhram Nazim oğlu.

Anası Həşəmzadə Ruhəngiz Xudaş qızı, evdar xanımdır.

2 bacısı və 1qardaşı var.

Biz də öz növbəmizdə Həşizadə Əliyə dərslərində müvəffəqiyyətlər arzu edirik. Sorağın hər zaman zirvələrdən gəlsin, yolun açıq olsun!

# Nəbiyeva Məleykə



**Üç şeysiz bərqərar olmaz : mal ticarətsiz,**
**Elm bəhssiz, səltənət siyasətsiz.**
***Sədi Şirazi***

Məlum olduğu kimi, həm elm, həm də din hər ikisi ictimai şüurun müstəqil formalarıdır. Uzun müddət elmlə dini qarşı- qarşıya qoyaraq zorla “düşmən” obrazı yaratmağa cəhd etmişlər. Əlbəttə bu düzgün deyildi.

Ümumiyyətlə, bəşəriyyətin bütün mənəvi tarixi boyu elm və din mühüm yer tutmuş, bir- biri ilə mübarizə aparmaqla yanaşı, həmçinin əməkdaşlıq da etmişlər. Din xadimləri arasında alimlərin, böyük kəşflər edən adamların sayı da az olmamışdır. Bəşər həyatının hər bir dövründə öyrənmək və öyrətmək mühüm amil olmuşdur. İndiki dövrümüzdə də gənclərimiz elm yolunda əmin addımlarla irəliləyir, daha çox bilik əldə etmək üçün əllərindən gələni edirlər. Bu gənclərimizdən biri də Məleykədir.

Nəbiyeva Məleykə Ələsgər qızı 2004-cü ildə Tovuz şəhərində anadan olub. Məleykə çox ağıllı, çalışqan və savadlı şagirddir. O, həm savadı, həm də tərbiyəsi ilə qısa zamanda hamının rəğbətini qazanmış və onların sevimlisinə çevrilmişdir. Bütün fənlərinə hazırlıqlı gələn Məleykənin ən sevdiyi fənlər İngilis dili, Riyaziyyat və Azərbaycan dilidir. Ən sevimli müəllimələri isə bu fənləri ona sevdirən Pərvanə müəllimə-(ingilis dili), Aygün müəllimə(riyaziyyat), və Günel müəllimədir(Azərbaycan dili). Məleykə savadlı olduğu qədər məsuliyyətli də şagirddir. O, boş zamanlarında belə dərsləri ilə məşğul olmağı yaddan çıxarmır. Dərs oxumaqdan başqa asudə vaxtında gəzməyi və ailəsi ilə vaxt keçirməyi də sevir. Onun ailəsi 5 nəfərdən ibarətdir: atası Nəbiyev Əfqan Heydər oğlu, anası Nəbiyeva Aynurə Bəhrəm qızı, bacısı Nəbiyeva Gövhər və qardaşı Nəbiyev Heydər.

Məleykənin ən böyük arzusu məktəbi müvəffəqiyyətlə bitirib, ali məktəbə daxil olmaqdır. Tələbə adını qazanmaq istəyən Məleykə müəllim və ya jurnalist olmağı arzulayır. Biz də ona bu yolda bol-bol uğurlar arzulayırıq.



# Vəliyeva Sevda



Təhsili cəmiyyətin fəal hərəkətverici, inkişafetdirici qüvvəsinə çevirənlər isə məhz müəllimlərdir. Təhsilin məzmunu nə qədər yüksək və mükəmməl, maddi-texniki bazası nə qədər möhkəm, biliklərin ötürülməsi vasitələri nə qədər təkmil və müasir olsa da, əgər müəllim yoxdursa, heç nədir. Təhsil məhz müəllim əqlinin gücü ilə cəmiyyətin inkişaf amilinə çevrilir, biliklərin, mədəniyyətlərin, milli adət-ənənələrin daşıyıcısı olan yeni-yeni nəsillər məhz müəllim zəkasının nurundan, müəllim qəlbinin hərarətindən pay alaraq formalaşır. Bu baxımdan müəllim təhsildə əsas sima, aparıcı qüvvədir.

Vəliyeva Sevda Toğrul qızı 1mart 2012-ci ildə Bakıda anadan olmuşdur. Sevda çox ağıllı və tərbiyəli şagirddir. O, 2018-ci ildə 297 nömrəli tam orta məktəbin 1-ci sinifində təhsil alır. Sevda balamız dərslərində fəal iştirak edir. O, müəllimlərin və şagirdlərin sevimlisinə çevrilib. Sevda bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənn Azərbaycan dili, Riyaziyyat və İngilis-dili fənnidir. Sevda müəllimlərin rəğbətini qazanmağı bacarmışdır. Ən çox sevdiyi müəllimə Günay müəllimədir. Sevda boş vaxtlarında oyun oynamağı, rəsm çəkməyi çox sevir. Gələcəkdə skripka müəlliməsi olmaq arzusundadır. Sevda balamızın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Vəliyev Toğrul Elxan oğlu, mühəndislik üzrə fəaliyyət göstərir.

Anası Vəliyeva Könül Ehtibar qızı, Milli konservatoriyada kamança müəllimәsidir.

Bacısı Vəliyeva Ayla Toğrul qızı, məktəblidir, 4-cü sinif şagirdidir.

Biz də öz növbəmizdə Vəliyeva Sevdaya həyat yolunda uğurlar diləyir, millətinə, torpağına, vətəninə layiqli şəxsiyyət olmağını arzu edirik.

# Əsədov Əli





**Müasir həyat və dünyanın gələcəyi insanlardan daha çox bilik tələb edir.**

***Heydər Əliyev***

Elm sözü biliksizliyə əks olan biliyi ifadə edir. Biliksizlik isə məlum olduğu kimi bu və ya digər hadisə, proses haqqında məlumatsızlıq deməkdir. Hər bir elm öz predmet və metoduna malikdir. Predmet dedikdə nəyin tədqiq olunduğu, metod dedikdə isə həmin tədqiqatın hansı üsullarla aparıldığı başa düşülür. Hələ balaca vaxtından elmə maraq göstərməli, elmi bilik çərçivəmizi genişləndirməliyik. Əli balamız da bu yolda irəliləyən şagirdlərdən biridir.

Əsədov Əli Şəmsi oğlu iyunun 3-ü 2007-ci ildə Sumqayıt şəhərində dünyaya gözlərini açmışdır. Birinci sinifə ilk dəfə 2013-cü ildə getmiş, direktorluğunu Həsənova Şamama xanım üstələnmiş Hafiz Quliyev adına Çaytumas məktəbində təhsilinə başlamışdır. Hazırda da həmin məktəbdə 6a sinifində oxuyur. O, çox ağıllı və intellektual uşaqdır. Həm savadı, həm də tərbiyəsi ilə qısa zamanda müəllimlərinin rəğbətini qazanmışdır. Bütün fənlərinə hazırlıqlı gələn və əla qiymətlər alan Əli ən çox Biologiya fənnini xoşlayır. Ən sevimli müəllimi isə Günel müəllimədir.

Qeyd etdiyimiz kimi Əli çox intellektual uşaqdır. O, dərsləri ilə məşğul olmaqdan savayı incəsənətin müxtəlif sahələri ilə də maraqlanır. Həm musiqiyə, həm şahmata, həm də təsviri incəsənətə maraq göstərir. Şahmat üzrə diplomları və fəxri fərmanları vardır. Özünü daha da inkişaf etdirmək üçün rəsm və musiqi dərslərinə gedir. Təsviri incəsənət və musiqidən də keçirilmiş yarışlarda iştirak edərək böyük nailiyyətlər əldə etmişdir. Onun bacarıqları bunlarla da kifayətlənmir. Əli boş zamanlarında rəqslə də məşğul olur. Həqiqətən də gələcəyimizin bu cür istedadlı gənclərə ehtiyacı var. Əlinin ən böyük arzusu gələcəkdə tanınmış, peşəkar musiqiçi olmaqdır. O, ölkəmizin adını hər yanda tanıtmaq və bayrağımızı hər daim yüksəltmək arzusundadır. Biz də ona bu yolda hər daim yüksəklərdə olmağı arzulayırıq.

Əlinin atasını 2012-ci ildə vəfat etmişdir. Anası 1988-ci ildə anadan olub və hal-hazırda saç ustası kimi işləyir. O, oğlundan həm maddi, həm də mənəvi dəstəyini heç bir zaman əsirgəmir.



# Rüstəmli Rafiq




Hədəf
KURSLARI
FƏXRİ FƏRMAN
Aşağı Mollu kənd tam orta məktəbin
sinif şagirdi
Hədəf kurslarının keçirdiyi
sınaq imtahanında
yer tutduğuna görə
TƏLTİF OLUNUR
Hədəf kurslarının direktoru:
Şamil Sadiq
2017-ci il

**Ən faydalı iş cavanlıqda elm öyrənmək və qocalanda öyrəndiklərini saf-çürük etməkdir.**

Elm praktikanın ən yüksək, bütün gerçəklik hadisələrini əhatə edə bilən ümumiləşdirilməsidir, baş verən hadisələrin, proseslərin, təbiətin, cəmiyyətin və təfəkkür qanunlarının mahiyyəti haqqında abstrakt- məntiqi formada həqiqi bilik verir. Elmin hər bir sahəsində faktların toplanması prosesi gec- tez biliklər sistemi olaraq nəzəriyyənin yaradılmasına gətirib çıxarır, bu da həmin bilik sahəsinin, sözün əsl mənasında, elmə çevrilməsinin ən düzgün əlamətidir. Elm öyrənməyə can atan şagirdlərimizdən biri də Rafiqdir.

Rüstəmli Rafiq Qabil oğlu 28 oktyabr 2008-ci ildə Sumqayıt şəhərində dünyaya gözlərini açmışdır. Rafiq çox fəal və çox çalışqan şagirddir. Ən çox sevdiyi fənn Riyaziyyat, ən sevimli müəlliməsi isə Vəfa müəllimədir. O, həm dərslərində, həm də idmanda öz fəallığını göstərir. Bilik yarışlarında, cüdo idman növündə onun bir çox uğur və nailiyyətləri vardır. Dəfələrlə diplom və fəxri fərmanlarla mükafatlandırılmışdır, hətta 3-cü sinifdə oxuduğu vaxt 1-ci yerə layiq görülmüşdür. Hədəf kurslarının keçirdiyi sınaq imtahanında 3-cü yeri tutduğuna görə fəxri fərmanla təltif olunmuşdur.

Rafiqin atası Rüstəmov Qabil 1981-ci ildə anadan olub, ticarətlə məşğul olur. Anası Rüstəmova Günay 1984-cü ildə anadan olub, hal-hazırda evdar xanımdır. Qardaşları Rüstəmli Hikmək, Rüstəmli Ömərdir. Bacısı isə Rüstəmova Firuzədir.

Rafiq boş zamanlarını kitab oxumaqla dəyərləndirir. Vətənpərvər ruhlu bu şagirdimiz vətənə xidmət etməyi, vətənin keşiyində durmağı və bu şərəfli məsuliyyəti öz üzərinə götürməyi arzulayır. Onun ən böyük arzularından biri də hüquqşünas olmaqdır. Qarşısına qoyduğu bu məqsədlərə nail olmaq üçün Rafiq çox əzmlə çalışır. Biz də inanırıq ki, o, bu məqsədlərinə müvəffəqiyyətlə nail olacaq.

# Cahangirli Bəkir



**Eşqinlə atəşə dön, nifrətinlə buza dön,**
**Elm yolunda günə dön, aya dön, ulduza dön!**
**Nizami Gəncəvi**

Elm ictimai inkişafın nəticəsidir. Yarandığı gündən insanın fəaiyyəti ilə qırılmaz surətdə əlaqədar olmuşdur. Elm bir tərəfdən, daima insan fəaliyyətinin təsiri altında olmuş, digər tərəfdən isə həmin fəaliyyətə fəal təsir göstərmişdir. Elm dünyagörüşünün yaranıb inkişaf etməsinə hərtərəfli şərait yaratmışdır. Onun əsas vəzifəsi ictimai tələbatın ödənilməsidir. Bəkir də yaşının az olmasına baxmayaraq elmin insan həyatındakı mövqeyini anlayıb, bu yolda əmin addımlarla irəliləyən şagirdlərimizdən biridir.

Cahangirli Bəkir Samir oğlu 26 noyabr 2008-ci ildə Bakı şəhəri Keşlə qəsəbəsində dünyaya gözlərini açmışdır. Anadan olduğu gündən ailəsinə sevinc bəxş edən Bəkir həm çox ağıllı, həm də düşüncəli uşaqdır, hər zaman oxumaq və öyrənmək həvəsindədir. O, hal-hazırda Qubadlı rayon Xanlıq kənd 2 saylı tam orta məktəbin 5-ci sinifində öz təhsilini davam etdirir. Məktəbə başladığı ilk günlərdən hamının sevimlisinə çevrilən Bəkir dərslərində fəal iştirak edir. O, müəllimlərinin əziyyətini də dəyərləndirir və hər zaman onların rəğbətini qazanmaq üçün əlindən gələni edir. Ən sevimli müəllimələri Babayeva Ruhəngiz müəllimə və Məmmədova Türkan müəllimədir. Ən çox sevdiyi fənn isə Riyaziyyatdır.

Bəkirə dərslərində ailəsi, xüsusilə anası köməklik edir. Onun uğurlarına ən çox sevinən və ən çox dəstəkləyən də elə onun ailəsidir. Atası Cahangirov Samir Bəkir oğlu 28 mart 1976-cı ildə Bakı şəhərində anadan olub, ABC telecomda hüquqşünas işləyir. Anası Cahangirova Səkinə Tahir qızı 16 oktyabr 1979-cu ildə Qubadlı rayonunda anadan olub, ibtidai sinif müəlliməsidir. Bacısı Cahangirli Nuray onunla bir məktəbdə 6-cı sinifdə oxuyur.



# Ələkbərov Rəvan







**Elmdir cümlə-sənətin dəyəri,**
**Elmsiz sənətin nədir dəyəri?**
***Abbas Səhhət***

Elm həqiqəti öyrənir, həyatın qanunauyğunluqlarını, təbiətin sirlərini birbirinin ardınca kəşf edir. İnsan yalnız elmi, təhsili, hərtərəfli dünyagörüşü ilə başqalarından fərqlənə bilər. Hər birimiz hər an yeni bir bilgi əldə etməyə çalışmalı, təhsilimizi, biliyimizi artırmalıyıq. Çünki bilik və təhsil almadan heç nə əldə edə bilmərik. Təhsil yolunda əmin addımlarla irəliləyən şagirdlərimizdən biri də Rəvandır.

Ələkbərov Rəvan Müqabil oğlu yanvarın 7-si 2005-ci ildə İmişli rayonunda anadan olub. O, 2010-cu ildə 71 saylı tam orta məktəbin 1-ci sinifinə getmişdir. Hazırda həmin məktəbin 8b sinifində oxuyur. Rəvan çox çalışqan və bir o qədər də savadlı şagirddir. Bütün fənlərini yaxşı oxuyur və əla qiymətlər alır. Bütün sinifləri əlaçılıqla bitirmişdir. Dərslərinə məsuliyyətlə yanaşan Rəvan öz fəallığı ilə sinif yoldaşlarından fərqlənir. O, bütün müəllimlərinin rəğbətini qazanmışdır. ən sevimli müəllimələri İlahə müəllimə (Azərbaycan dili), Səbinə müəllimə (Tarix) və İlahə müəllimədir (İngilis dili).

Atası 1977-ci ildə İmişli rayonunda anadan olub, kiçik bizneslə məşğul olur. Anası da 1980-ci ildə İmişlidə anadan olub, hazırda evdar xanımdır. Qardaşı 2002-ci ildə İmişlidə anadan olub və hal-hazırda 71 saylı orta məktəbin 10-cu sinif şagirdidir.

Rəvan boş zamanlarında idmanla məşğul olmağı da unutmur. Bununla o həm də öz sağlamlığının qeydinə qalmış olur. Onun ən böyük arzusu məktəbi müvəffəqiyyətlə bitirib, ali məktəbə daxil olmaqdır. Gələcəkdə ədaləti qoruyan, savadlı bir hüquqşünas olmağı arzulayan Rəvana biz də redaksiyamız adından uğurlar arzu edirik. Hər zaman ailənin fəxri olasan!

# Sadıqzadə Əli






**Elm əqidəli olmaq üçündür, dünya malı yığmaq üçün yox**

***Sədi Şirazi***

Təhsilin insan həyatında, müstəqil Azərbaycanımızın tarixində oynayacağı mühüm rolu qiymətləndərərək Ulu öndərimiz Heydər Əliyev qeyd edirdi ki, gərək gənclərimiz həyatımızın bu çətinliklərinə baxmayaraq təhsillənsinlər. Yəni biz məktəblərin, təhsil müəssisələrinin işinə daha çox qayğı, diqqət göstərməliyik. Hər hansı bir çətinliyə baxmayaraq, biz təhsili yaşatmalıyıq. Gənclər müstəqil bilik almalıdırlar, təhsillənməlidirlər, eləcə də Əli kimi.

Sadıqzadə Əli Etibar oğlu 8 mart 2007-ci ildə Bakı şəhəri Binəqədi qəsəbəsində anadan olmuşdur. Məktəbə ilk dəfə 2013-cü ildə getmişdir. 297 saylı tam orta məktəbdə təhsilinə başlayan Əli hal-hazırda həmin məktəbin 6-cı sinifində öz təhsilini davam etdirməkdədir. O, dərslərinə qarşı çox məsuliyyətli şagirddir. Hər zaman dərslərinə hazırlıqlı gəlir. Bütün fənlərini, eləcə də bütün müəllimlərini sevən Əli xüsusilə Mübariz müəllimin adını vurğulayır. Müəllimlərinin onun üzərindəki əziyyətini heç vaxt yaddan çıxarmır və hər zaman onlara layiq şagird olmaq üçün çalışır.

Əli kinboksla məşğul olur və bu sahədə özünü zamanla daha da inkişaf etdirir. Kinboks üzrə keçirilən yarışlarda dəfələrlə diplomlarla və medallarla mükafatlandırılmışdır. O, boş zamanlarında da idmanla məşğul olur. Ən böyük arzusu gələcəkdə tanınmış idmançı olmaqdır. Biz də inanırıq ki bu əzmlə çalışdığı müddətcə istəyinə ən qısa zamanda nail olacaq.

Ailənin tək oğul övladı olan Əlinin ailəsi 5 nəfərdən ibarətdir. Atası Sadıqov Etibar Əmirqulu oğlu A.A.F mühəndis, anası Sadıqova Fəridə isə evdar xanımdır. Bacıları Sadıqova Nərmin və Sadıqova Sevincdir.



# Cahangirli Nuray





**İqtisadiyyatda, mədəniyyətdə, elmdə, həyatın bütün sahələrində əldə olunmuş nailiyyətlərin başında duran, onun əsasını təşkil edən, kökü olan məktəbdir, təhsildir, müəllimdir.**

***Heydər Əliyev***

Elm sirli bir aləmdir. O, elm adamlarını həmişə möcüzələr yaratmaq yolu ilə getməyə sövq edir. Bizcə elmdə ən başlıca şüar "irəliyə get" olmalıdır. Yaxşı və qiymətli olan şey heç vaxt əhəmiyyətini itirmir. İnsanları yaxşılardan nümunə götürüb daha qiymətli olanları yaratmağa sövq edir. Elm yolunda kitabları özünə yoldaş seçən şagirdlərimizdən biri də Nuraydır.

Cahangirli Nuray Samir qızı 25 avqust 2007-ci ildə Bakı şəhərində Keşlə qəsəbəsində anadan olub. Hazırda Qubadlı rayon Xanlıq kənd 2 saylı tam orta məktəbin 6-cı sinifində oxuyur. O, çox savadlı və məsuliyyətli şagirddir. Hər zaman məktəbə hazırlıqlı gəlir və dərslərində fəal iştirak edir. Bütün fənlərini yaxşı öyrənən Nuray ən çox Riyaziyyat, Azərbaycan dili, Ədəbiyyat və Tarix fənlərini sevir. Onun ən sevimli müəllimələri Abdullayeva Nigar, Babayeva Ruhəngiz və Xanlarova Ülkər müəllimədir.

Nuray boş vaxtlarında rus dilində nağıl kitabları oxumağı çox sevir. Həm dil biliyini inkişaf etdirir, həm də dünya ədəbiyyatıyla tanış olmağa başlayır. Onun ən böyük dəstəkçisi öz ailəsidir. Atası Cahangirov Samir Bəkir oğlu 1976-cı il mart ayının 28-də Bakı şəhərində anadan olub, ABC telecomda hüquqşünas vəzifəsində işləyir. Anası Cahangirova Səkinə Tahir qızı 1979-cu il oktyabrın 16-da Qubadlı rayonunda anadan olub, ibtidai sinif müəlliməsidir. Qardaşı Cahangirli Bəkir 5-ci sinif şagirdidir.

Nurayın ən böyük arzusu ali məktəbə qəbul olmaqdır. O, valideynlərinin və müəllimlərinin başını hər zaman uca etmək və tələbə adını qazanıb, gələcəyə savadlı, ədalətli bir vəkil olmaq üçün çox çalışır. Biz inanırıq ki, o, bu istəyinə nail olacaq.

# Ədilova Almara




**Kəşf etmək hamının gördüyünü görmək, lakin hələ heç kimin düşünmədiyini düşünmək deməkdir.**

***A.Dreydi***

Azərbaycan Respublikasında təhsilin əsas məqsədi dövlət qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək; milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq; sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsil alanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaqdır. Çünki bizim gələcəyimiz də həmin cavanlarımızdan asılıdır. Onlardan biri də Ədilova Almaradır.

Ədilova Almara Zöhrab qızı 2008-ci ilin 25 aprelində Bakı şəhərində anadan olub. Təhsil həyatına ilk qədəmlərini 2014-cü ildə atmış, 297 nömrəli tam orta məktəbin birinci sinifinə getmişdir. Hal-hazırda həmin məktəbin 5-ci sinifində oxuyur. O, sinifinin ən fəal, ən savadlı şagirdlərindən biridir. Buna görə dəfələrlə diplom və təltifnamələrlə mükafatlandırılmışdır. Onun ən sevdiyi fənn Tarix, Azərbaycan dili və Ədəbiyyatdır. Ən sevimli müəllimәsi isə Pərvanə müəllimədir.

Onun atası Ədilov Zöhrab Qabil oğlu dəmir yolunda işləyir. Anası Ədilova Şəfəq Vaqif qızı evdar xanımdır. Bacıları Ədilova Çiçək, Ədilova Mələk, qardaşı Ədilov Vaqifdir.

Almara boş zamanlarında kitab oxuyur, dünyagörüşünü və təfəkkürünü inkişaf etdirir. O, eyni zamanda, asudə vaxtında əl işləri də düzəldir. Ən böyük arzusu isə məktəbi bitirib, ali məktəbə daxil olmaqdır. O, hüquqşunas olmaq istəyir. Biz də arzu edirik ki, Almara balamız gələcəkdə tələbə adını qazanar və istədiyi peşəyə yiyələnər.



# Ədilov Vaqif



**Mənim ümmətimdən hər bir ağıl sahibinə bu dörd şey vacibdir: elmi eşitmək, onu öyrənmək, yaymaq və ona əməl etmək.**

***(Hz.Muhəmməd s.ə.v.)***

Elmin insan həyatının çiçəklənməsində müstəsna rolu vardır. Elmi nailiyyətlər nəticəsində bəşər həyatı daha da gözəlləşməyə doğru irəliləməkdədir. Elm zülmətdən işıqlığa və səadət nuruna yetişməkdə bəlkə də yeganə vasitədir. Hər bir cəmiyyətin həyat səviyyəsinin yüksəlişi, tərəqqisi, həmin toplumda elmin inkişafından, elmə marağın hansı səviyyədə olmasından və daha bir çox elmlə bağlı ünsürlərin həmin cəmiyyətdə olub-olmamasından asılıdır. Cəhalət və savadsızlığın hakim olduğu bir təbəqə və cəmiyyət sonunda süquta məhkumdur. Bizim gələcəyimiz gənclərimizdən asılıdır. Bu gənclərdən biri də Vaqifdir.

Ədilov Vaqif Zöhrab oğlu 29 noyabr 2009-cu ildə Bakı şəhərində anadan olub. O, birinci sinifə 2016-cı ildə getmiş, 297 nömrəli məktəbdə təhsilinə başlamışdır. Hal-hazırda həmin məktəbin 3-cü sinifində oxuyur. Vaqif dərsləri yaxşı oxuyur və göstərdiyi fəallığı ilə öz sinif yoldaşlarından fərqlənir. O, istər savadı, istərsə də tərbiyəsi ilə qısa zamanda hamının sevimlisinə çevrilmişdir. Onun ən çox sevdiyi fənn Ana dili, ən sevdiyi müəlliməsi isə Mətanət müəllimədir. Dərslərində göstərdiyi fəallığına görə fəxri fərmanla mükafatlandırılmışdır. O, boş zamanlarında dərsləri ilə məşğul olmaqla yanaşı, rəsm çəkir və kitab oxuyur. Bununla da o bir yandan öz təfəkkürünü inkişaf etdirir.

Atası Ədilov Zöhrab Qabil oğlu dəmir yolunda işləyir. Anası Ədilova Şəfəq Vaqif qızı evdar xanımdır. Bacıları Ədilova Çiçək 8-ci sinifdə oxuyur, Ədilova Almara 5-ci sinifdə oxuyur, Ədilova Mələk isə balacadır.

Biz kollektivimiz adından Vaqifə gələcək həyatında uğurlar arzu edirik. Səsin hər zaman yüksəklərdən gəlsin!

# Rəhimov Babək



**Elmi beşikdən qəbirədək öyrənin.**
***Məhəmməd Peyğəmbər***

Elmdə əməli fəaliyyətin başlıca xüsusiyyətləri bundan ibarətdir ki, o, biliklər əldə etmək, nəzəriyyəni inkişaf etdirmək işinə tabedir. Əlbəttə, təkcə elmdə deyil, insan fəaliyyətinin hər bir sahəsində də maddi amillə mənəvi amil bir- biri ilə çulğalaşmışlar, buna görə də həmin amillərdən hər biri nəzərdən keçirilərkən bunların qarşılıqlı təsir dialektikası hesaba alınmalıdır. Məsələn, mənəvi cəhət olmadan ictimai şüurun heç bir sahəsi mövcud deyildir. Buna görə də yaşadığımız müddətcə hər daim yeni bir şeylər öyrənmək və öyrətmək vacib amildir. Öyrənməyə həvəs göstərən və bu yolda əmin addımlarla irəliləyən gənclərimizdən biri də Babəkdir.

Rəhimov Babək Rəfael oğlu fevralın 1-i 2005-ci ildə anadan olmuşdur. Ailəsinin fəxri olan Babək təhsil həyatına ilk qədəmlərini 2011-ci ildə atmış və Qubadlı rayon Çardağlı kənd tam orta məktəbin birinci sinifinə getmişdir. Hazırda həmin məktəbin 8b sinifində öz təhsilini davam etdirməkdədir. O, çox fəal və çevik uşaqdır. Dərslərində göstərdiyi fəallıqlarına görə yoldaşlarından seçilir. Azərbaycan dili və Bədən tərbiyəsi fənlərini daha çox sevir. Ən çox sevdiyi müəllimləri isə Aynur müəllimə və Famil müəllimdir. Babək dərslərində göstərdiyi fəallığı idmanda da göstərir. Cüdo ilə yaxından məşğul olur və bu sahədə bir çox müvəffəqiyyətlər əldə edib. Azərbaycanın bir çox rayonlarında, eləcə də Gürcüstanda keçirilən yarışda 3-cü yeri qazanaraq mükafatlandırılmışdır. O, boş zamanlarında da idmanla məşğul olub, özünü bu istiqamətdə inkişaf etdirir. Gələcəkdə tanınmış idmançı olmaq istəyən Babək bu istəyinə nail olmaq üçün indidən əzmlə çalışır. Ailənin tək övladı olan Rəhimovun uğurlarına hər zaman onunla bir sevinən, hər zaman onu dəstəkləyən və arxasında duran onun ailəsidir. Atası Rəhimov Rəfael və anası Rəhimova Tünzalə Gəncə şəhərində işləyirlər.






2013-cü ildən nəşr olunan Təhsil Yenilikləri qəzeti və eyni adda xüsusi buraxılış jurnalı əsasən dövlət və dövlətçiliyi təbliğ edir. Öz saylarında daha çox təhsil, təhsildəki yeniliklər haqqında məlumat verir.

Xüsusi buraxılış olan jurnalda istənilən şəxslər öz yazılar ilə çıxış edə bilər. Belə ki, qabaqcıl ziyalılar, müəllimlər, həkimlər, tələbələr, şagirdlər və qeyri-ixtisasın sahibləri öz yazılarını jurnalda çap etdirə bilərlər. Eləcə də 500-dən yuxarı bal toplayan məzunlar, əlaçılar, idmançılar, maraqlı əl işləri olan gənclər, səs qabiliyyəti olan və şeir yazmaq və demək qabiliyyəti olan şagirdlər də jurnala müraciət edə bilərlər.

Onu da qeyd edək ki, jurnal şəhid övladlarına, fiziki əqli cəhətdən zəif olan şagirdlərə, o cümlədən hər iki valideynini itirən şagirdlərə pulsuzdur.

Əziz oxucular! Əgər sizlər də jurnalda məqalə, elan, təbrik və reklam vermək istəyirsinizsə aşağıdakı telefonlarla əlaqə saxlaya bilərsiniz:

Telefon nömrələri:

(070) 077 988 82 83    077 632 22 86 WhatsApp    012 408 91 92

Mail: tehsil_news@mail.ru

Facebook: Tehsil Yenilikleri    İnstagram: tehsil_yenilikleri    Youtube: Təhsil Yenilikləri

# ÇAĞDAŞ TƏHSİL

Xüsusi buraxılış Yanvar 2019-cu il (06)








# EUROHOME

***Müasir dam örtükləri***

Hər növ polimer örtükləri, yeni dam örtüklərinin sifarişi

ruukki

**İtalya, Koreya, Çin, Türkiyyə, Ukrayna və bütün dövlətlərin mallarının satışı.**
**Burada hər növ dam örtükləri topdan və pərakəndə satışı olur.**









---

**Ünvan: Xırdalan şossesi, Ekologiya postu ilə üzbəüz**
**EVROHOME mağaza N103**
**Dükanıbn sahibi: Seymur Orucov**
**Tel: (+994 51) 600-02-07**

Təsisçi baş Redaktor:
Vüsal Kəlbəcərli

Redaksiya heyyəti:
Cavid Qurbanov
Qənbər Qurbanov

"Çağdaş Təhsil"
qəzetinin
Xüsusi buraxılış

Ünvan: Azərbaycan
Respublikası
Bakı şəhəri, Mətbuat
prospekti
529-cu məhəllə
"Azərbaycan nəşriyyatı"
2-ci mərtəbə

Jurnal Redaksiyanın
kompüter mərkəzində
yığılıb, səhifələnib,
çap olunmuşdur.

Tiraj - 500

Tel: 012-408-91-92
077-632-22-86
050-877-71-86